# HAQQ ƏDALƏT PARTİYASI

## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR.

1. **Giriş.**

Hazırki maliyyə hesabatı 01.01.2025 - 31.12.2025-ci il üzrə AR Nazirlər Kabinetinin 03.08.2023-cü il tarixli 262 nömrəli qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"na uyğun olaraq **Haqq Ədalət Partiyası** (irəlidə Partiya adlanacaq) üçün tərtib edilmişdir.

2. **Partiya haqqında ümumi məlumatlar.**

Haqq Ədalət Partiyası (HƏP) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 15.10.2021-ci il tarixli (Qeydiyyat №1121-Pİ-0063) Qeyri-Kommersiya Hüquqi Şəxsinin Dövlət Qeydiyyatı haqqında Şəhadətnaməsi ilə dövlət qeydiyyatına alınmışdır.
Mülkiyyət növü **xüsusi**

Qanuni təmsilçi - **Sədr: Əli Binnət oğlu İnsanov**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 04.05.2023-cü il tarixli Qeyri-Kommersiya Qurumunun Vergi Uçotu haqqında Şəhadətnamə №(VÖEN) 1506370551 ilə vergi uçotuna alınmışdır. HƏP-in başlıca siyasi məqsədi insan hüquq və azadlıqlarını möhkəm təminat altına almaq, azad fərdin xoşbəxtliyə çatmasının təminatını yaratmaq, sosial rifah içində olan ədalətli, açıq cəmiyyət qurmaq, liberal dəyərlərə, demokratiya və insan haqları, siyasi plüralizm, qanunun aliliyi, azad bazar iqtisadiyyatı və sosial ədalət prinsiplərinə əsaslanan, müstəqil, azad və demokratik, dünyəvi hüquqi dövlət qurmaq, dinc, demokratik və bölünməz Yeni dünya birliyində yer almaqla etibarlı beynəlxalq təhlükəsizlik təminatı almaqdır.

Hesabat dövrü ərzində işçilərin sayı 1 (bir) nəfər olmuş, işçilər ictimai əsaslarla fəaliyyət göstərmişdir.

3. **Maliyyə hesabatlarının elementləri**

Maliyyə vəziyyəti haqqında hesabatın elementləri aktiv, öhdəlik və kapitaldan ibarətdir ki, hesabat dövrü ərzində yalnız dövlət maliyyə yardımı və üzvlük haqqı olaraq gəlir hesabına xərclər qeyd olunmuşdur.

Maliyyə təsərüfar fəaliyyətinin nəticələri haqqında hesabatda gəlir və xərclər öz əksini tapır. Hesabat dövrü üzrə gəlir dövlət maliyyə yardımı və üzvlük haqqı olaraq HƏP-in ABB-nin Binəqədi filialında olan bank hesabına mədaxil edilmiş vəsait hesabına yaradılmışdır. Dövlət maliyyə yardımı və üzvlük haqqı olaraq bank hesabına köçürülmüş vəsait siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər üzrə istifadə edilmişdir.

4. **Gəlirin tanınması**

Gəlir tanıma meyarlarına uyğun olaraq tanındıqdan və qiymətləndirildikdən sonra uçota alınmaqla partiyanın maliyyə təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabatda əks etdirilir.

2 nömrəli forma üzrə siyasi partiyanın gəlirləri 2090 (iki min doxsan) manat dövlət maliyyə yardımı və 1323,28 (bir min üç yüz iyirmi üç manat, iyirmi səkkiz qəpik) manat üzvlük haqqı olaraq formalaşmışdır.

Əsas əməliyyat gəliri dövlət maliyyə yardımı və üzvlük haqqı olduğundan vergiyə cəlb olunmur.

5. **Xərclərin tanınması**

2 nömrəli forma üzrə siyasi partiyanın xərcləri siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclərdən ibarət olmaqla 3413,28 manat təşkil etmişdir və aşağıdakı qaydada təsnifləşdirilir.

- Ofisin icarəsi ilə bağlı xərclər – 876 manat,
- İnternet xərcləri və telefon xərcləri – 630 manat,
- İstilik sistemi ilə bağlı xərclər – 785 manat,
- Elektrik enerjisindən istifadəyə görə - 210 manat
- Ezamiyyə xərcləri – 242 manat
- Ofis ləvazimatları, dəftərxana xərcləri – 670, 28

Cəmi xərclər – 3413,28 (üç min dörd yüz on üç manat, 28 qəpik) manat

**6. Uçot siyasətinin təqdimatı**

Uçot siyasətinin bu maliyyə hesabatının tərtib edilməsində istifadə olunan əsas müddəaları Nazirlər Kabinetinin 03.08.2023-cü il tarixli 262 nömrəli qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi" Qaydasına müvafiq olaraq aidiyyətli formalar üzrə göstərilmişdir.

**7. Partiyanın hüquqi ünvanı:**

Hüquqi ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq pr., ev 151, mənzil 62 (AZ 1106)
Yeni qaydalarla: Bakı şəh., Nərimanov rayonu, Azadlıq pr., 267, M1, mənzil 1

Faktiki ünvan – Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti 192.

**8. Əməliyyat valyutası:**

Hazırki maliyyə hesabatındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunur

**Haqq Ədalət Partiyasının sədri:** **Əli Binnət oğlu İnsanov**

**Baş mühasib** ____________________

"03" fevral 2026-cı il